# QARTALLAR ŞUŞAYA UÇUR

(poema)

*Vətən müharibəsi qəhrəmanı, tabor komandiri kapitan Ramazan İzzət oğlu Hudulova həsr edirəm.*

**Sözün əvvəli:**

**Sən daha azadsan, əziz Qarabağ!**

Cıdır meydanında bir ehtişam var,
İllər belə xoşbəxt görməmiş onu.
Açıb qucağını yalçın qayalar
Salamlayır Vətən oğullarını.
Zülmətdən qurtarıb ulu dağları
Nə gözəl müjdəylə açılır səhər!
Qayıdır Şuşanın dilbər çağları,
Gözün aydın, Vətən, günaydın, ellər!
O azad, o aydın səmaya baxın,
Çəkilib göylərdən qara buludlar.
Doğma nəfəs görür üzü torpağın,
Məhv olsun rəzalət, rədd olsun yadlar!
Ölkə sehrindədir bu xoş anların,
Göydən qar yerinə səadət yağır;
Qaçqın adı ilə yaşayanların
Qərib göz yaşları qəlbimə axır.
Bu gün ayrı düşən anayla bala,
Bir nəğməli ürək , bir can qovuşur;
İllər möhnətindən yetib vüsala
Bir qaynar bulaqla ümman qovuşur.
Qoy ötsün şəninə dil Qarabağın -
Yenidən dünyaya gələn günüdür.
Çox çəkmiş dərdini el Qarabağın ,
Bu gün ədalətin gülən günüdür.
Şuşa qalasında yüksələn bayraq
Car edir dünyaya qələbəmizi.
Sən daha azadsan , əziz Qarabağ,
Gəlirik qoynuna, gözlə sən bizi!

**Şimşək yardı zülmətləri**

Mərhəba, bir odlu şimşəyə dönüb
Sivri qayalardan çıxan igidlər,
Qırğıtək şığıyıb, qəfil görünüb
Düşməni əliyalın boğan igidlər!
Müqəddəsdir sağ da, şəhid də mənə,
Hər biri yenilməz qəhrəmandılar.

Yetərmi yüz vərəq yazsam da yenə?-
Elin yaddaşında bir dastandılar.
Söz vaxtına çəkər, məqamı gözlər,
Yerində deyilsə mətləb açılar .
Tale özü məni seçibsə əgər,
Dəyərli xalqıma deyəcəyim var :
Bizdən ayrılandan, şən Qarabağım,
Sanmışam ayrılır ruh bədənimdən .
Dərdi- dərdim olub, ağrısı -ağrım,
Otuz il çəkmişəm həsrətini mən.
Sıravi əsgərəm, silahım qələm,
Od-alovlu savaş mendanındayam .
Hər zəfər müjdəsi qəlbimə məlhəm,
Hər igid əsgərin mən yanındayam.

İndi də mətləbdən uzaqlaşmadan ,
Qəlbimin səsinə cavab verərək,
Ilhamla söz açım qəhrəmanımdan,
Nə oğullar varmış bilsin gələcək .
Qoy dünya tanısın qalib ordunun
Qalib əsgərini-Vətən oğlunu,
Vətən müharibəsi qəhrəmanının
Nəsillərə ibrət döyüş yolunu.
Fəqət qələm əldə -yanıram bütün,
Söz yükdür şairə- əzabverici .
O cəsur ürəyi vəsf etmək üçün
Qorxuram yetməyə sözümün gücü.

**Balakən Qartalı**

Balakən dağının şah zirvəsindən
Şuşa dağlarına bir qartal qondu.
Özgə yuvasını yurd edən düşmən
Bu qəfil həmlədən yerində dondu.
Xəyalpərəstlərin "Arsax"oyunu
Kapitulyasiya aktıyla bitdi,
"Böyük Ermənistan" röyalarını
Müzəffər ordumuz vir-viran etdi.
Ey yağı, onda sən bilmirdinmi bəs,
Vətənimin məğrur qartalları var?
Kimsə qabağında oynaya bilməz,
Hər biri bir ölməz qəhrəmandılar.
Şuşa girişinə ilk qədəm basan,
Zəfər tarixinə adını yazan
Ramazan da məğrur dağlar oğludur,
Qartal əslindəndir, dağ vüqarlıdır.
Xocavənddən üzü Şuşaya kimi
Döyüş yolu keçmiş o cəsur əsgər,
Dildən -dilə düşmüş,gəzib ölkəni,
O gənc komandirdə rəşadət, hünər

Döyüşlər başlarkən leytenant idi,
Şərəflə yüksəldi kapitan oldu.
Kiçik dəstə-tağım komandiriydi,
Bir böyük tabora komandan oldu.
Baxanda bu gəncin zəfər yoluna
Arzu etdiyimiz insan görünür ,
Güvəndikcə belə Vətən oğluna
Gözəl gələcəyə inam görünür.
İnsan, taleyiylə gəlir həyata,
Taleyinə hərbçi olmaq yazıldı.
Verəndə sinəni alova -oda
Qarabağın qışı döndü yaz oldu.

Sayılıb - seçilən bir ailədə
Böyüyüb tərbiyə almışdı gözəl.
Bu evdə ədəb də, düz tərbiyə də,
Hər nədən üstündü, hər şeydən əzəl.
Atanın -ananın ilki, nübarı,
Bacı- qardaşlara himayəydi o.
Böyükdü amalı, düzdü ilqarı
Ağılda , kamalda nümunəydi o
Sevirdi Vətəni, doğma eli də,
Göz açdığı gözəl Qabaqçölü də.
Uşaq yaşlarından birdi diləyi,
Bu şirin diləklə şən böyüyürdü.
Bir qoçaq hərbçi olmaq istəyi
Zərif ürəyində qönçələyirdi.
Hərbi qiyafədə bir əsgər görcək,
Həsədlə baxardı o bəxtəvərə.
Sonra xəyal edib uçurdu quştək
Əsgəri olacaq uzaq illərə.
Illərsə tez uçdu, yetişdi zaman,
Əla qiymətlərlə məktəb bitirdi.
Dərdini atayla bölüşdü oğlan,
Ürək arzusunu ona yetirdi:
"Ata, bir arzuyla yaşayıram mən,
Fikrim var təhsilli hərbçi olum.
Gəncliyin gücünə güvənir Vətən,
Orduya bağlansın qoy həyat yolum"
Oğul istəyinə şərik olsa da,
Min fikir apardı İzzət atanı:
"Seçimin düz olsun, oğul , dünyada,
Faydalı, gərəkli olanı tanı.
Az-çox dünyagörmüş bir böyük kimi
Düşünüb- daşınıb deyim fikrimi:
Arzumdu bir mülki peşə seçəsən,
Yarayasan xalqa əməyinlə sən.
Fəqət baxışından duyuram, oğul,
Könlündən keçəni gözlərin deyir.
Di, sənə uğurlar, cəsur əsgər ol,
Qəlbi paralanmış Vətən gözləyir.
Məğrur, mərd böyütdük ananla səni,
Öyrətdik borc nədir, ləyaqət nədir.
Harada olsan göstər dönməzliyini,
Bizə də şərəf və ucalıq gətir.
Get, bir anaya da dərdini danış,
Müfəssəl bəyan et sən bu istəyi.
Xoş sözlə könlünü almağa çalış,
Sıxılmasın kövrək ana ürəyi"
Ana! Ey varlığı, ruhu pakizə,
Ey ulu göylərdən enən möcüzə!
Sən bizim döyünən ürəyimizə
Məhəbbət toxumu səpməyə gəldin,
Adını Vətənlə çəkməyə gəldin.
Müqəddəs bildiyim iki qüdrət var:
Biri anadırsa, biri Vətəndır.
Dünyaya mərd gələr bizim oğullar,
Qibləgahı ana, piri Vətəndir.

Hərbçi olmağa qərar verəndən
Od -su səddindəydi qəhrəmanımız.
Arzusu keçirdi ana Vətəndən,
Anaya nə desin bilmirdi yalnız.
Ana-Vətən vardı hər diləyində,
O, iki qüdrətin arasındaydı.
Bir əli ananın ağ birçəyində,
Bir əli Vətənin yarasındaydı.
Mehrlə bağlanıb biri- birinə

İki tel keçirdi sevən qəlbindən.
Bir teli calanır ana qəlbinə,
Bir teli sızlayır Vətən dərdindən
Dolanıb başına pərvanə kimi
Deyəndə Ramazan öz niyyətini,
Bir az doluxsundu Mehriban ana,
Süzgün baxışlarla baxdı oğluna:
" Anan sənə qurban, dinlə, a bala,
Az deyil canımda narahatlığım .
Razıyam, düşsəm də mən haldan-hala,
Təki yaxşı yerdən gəlsin sorağın.
Əgər qətidirsə məramın sənin,
Əsl xoşbəxtliyi o yerdə ara.
Cəsur zabit olub azad ölkənin,
Qəlbindən işıq saç qaranlıqlara".
İbrət dolu ana nəsihətindən,
Oğlanın ürəyi dönmüşdü dağa.
Necə də razıydı öz niyyətindən,
Qanadı çatmırdı bircə uçmağa.

Elə bu arzuyla , belə istəklə
Üz tutdu o, Ali Hərbi məktəbə.
Çətin imtahandan keçdi ürəklə,
Niyyəti düz olan yetər mətləbə..
Burda qanun güclü , təhsil yerində,
Ən ağır təlimlər, məşqlər keçdi o.
Akademiyanın pillələrində
Bərkdən -boşdan çıxdı, mətinləşdi o.
Keçmiş zamanlardan qalma deyim var:
"Təlim çətin olsa döyüş asan olar"
Bu qaydanı rəhbər tutan Ramazan
Mərdliklə çıxırdı hər bir sınaqdan.
Mükəmməl öyrəndi hərbin elmini,
Şanlı ordumuzun bildi gücünü.
Əla başa vurdu təhsilini də
Qırmızı diplomlu Cənab Leytenant .
Tağım komandiri vəzifəsində
Birbaş Beyləqana aldı təyinat.
Ürəyində sevgi, saf arzu -dilək,
Gənc zabit başladı hərbi xidmətə.
Bəxtəvər şadlıqdan uçurdu quştək-
Arzulardan keçər yol səadətə.
Başlamış olduğu hərbi xidməti
Dinc dövrə təsadüf etsə də yenə,
Ayıq- sayıq olmaq gərəkdir, qəti
Uymaq olmaz xain düşmən məkrinə
Əla xidmətini alıb nəzərə
Ona baş leytenant çini verildi,
Böyük istedada , hünərə görə
Bölük komandiri təyin edildi.
Gəzdikcə xəyalı o Qarabağda
Ürək çırpınırdı,qan qaynayırdı.
Bilirdi hərb günü deyil uzaqda,
Daxilən özünü hazırlayırdı.

**Hərb, yoxsa sülh?**

Müharibə -ruhu sarsıdan məfhum-
Bütün dəhşətlərin ən dəhşətlisi,
Talançı əməli qara güruhun,
Böyük bəşər dərdi, həm faciəsi

Müharibə- qanlı ölüm maşını-
Əzəldən cahanı qana qərq etmiş;
Neçə əhrimanın yemiş başını,
Neçə haqq carçısı güdaza getmiş.

Müharibə -acı tarix yaddaşı,
Qaralan ocaqlar , sönən talelər;
Qərib anaların qanlı göz yaşı,
Heç olan ümidlər , nakam sevgilər.

Müharibə -çox vaxt haqq -ədaləti
Tapdayıb üstündən keçmək deyilmi?
Özüylə gətirib hər fəlakəti,
Xalqların haqqına girmək deyilmi?

Tədbirli hakimlər hərb yolu seçməz,
Ağılla həll edər müanqişəni.
Namərdlə üz -üzə gəlməsin bir kəs,
Gələndə də qanan olsun düşməni.

İnlərkən Qarabağ - o bəxtiqara,
Lal olub batsa da səsi cahanın,
Təmkinlə getmişik danışıqlara,
Sülh olmuş məramı Azərbaycanın!

Otuz il qaldırmış o, haqq səsini,
Susarmı əzası candan ayrılan?
Yelə vermiş neçə qətnaməsini
O Ali Təşkilat- o əhdi yalan.

Ədavət salanlar mənim gözümdə
Üzü qan çilənmiş cəllad heykəli.
Ucuz qəsbkarın , bu yer üzündə,
İfşa olunmalı murdar əməli.

Ölkəmin qətidir qərarı bu gün:
Sözlə qanmayanı , güclə qandırmaq!
Haqqın,ədalətin bərpası üçün,
Yeganə yol-savaş yoludur ancaq!

**Alovlu yollarla**

Alovlandı vətən müharibəsi,
Ordumuz üz tutdu ulu torpağa.
İşıq sürətilə yayıldı səsi,
Bütün ölkə birdən qalxdı ayağa
Oyansın kainat,eşitsin cahan,
Müqəddəs savaşa başlayır Vətən!
Mənfur işğalçıya vermədən aman,
Zəfər yürüşünə çıxır bü gündən .

Çəkilsin .... sərilsin ayaq altına
Günün qabağını tutan duman -çən.
Qılınc ki, sıyrılıb-girməz qınına,
Köçünü çəkməmiş yadlar bu yerdən.
Hər igid əsgərin bu gərgin anda
Savaşa girməkdi cəhdi, istəyi;
Cənab baş leytenant Ramazanın da
Hərb -deyə yanırdı cəsur ürəyi.

Sentyabrın iyirmi yeddisi günü
Yazılanda zəfər tariximizə,
Çəkib cəsarətlə öz bölüyünü
İlk dəfə düşmənlə gəldi üz-üzə.
Qartal tək şığıyıb hirslə cumaraq,
Amansız döyüşə girdi yağıyla.
Gözləri qızmışdı..... sən nifrətə bax!
Didmək istəyirdi diş- dırnağıyla.
Düşmən hücumunu dəf edə-edə,
Ələ keçirirdi mövqeləri də.
Od -alov içində od olurdu o,
Vətən sevgisindən od alırdı o!

**(Davamı 5-ci səhifədə)**

# QARTALLAR ŞUŞAYA UÇUR

**(Əvvəli 4-cü səhifədə)**

Əlində silahı ölüm saçırdı,
Düşmən sarsılırdı, düşmən qacırdı.
Mühüm təpələri etdikcə azad
Uçmaq istəyirdi, açaraq qanad.
Beləcə başlayıb o, Xocavənddən
Yönünü alırdı Şuşaya doğru.
İrəlidə Vətən, arxada Vətən ...
Ona ruh verirdi hər bir uğuru.
Hesabı artdıqca uğurlarının,
Ad-san qazanırdı bölüyü onun.
Əsgəri dostlar da, komandanlıq da
Yaxşı fikirdəydi Ramazan haqda.
Dava pik həddinə yetişən zaman
Yeri Füzuliyə dəyişdirildi.
Döyüş hazırlığı yüksəkdə olan
Tabora müavin təyin edildi.
Füzuli -ən ağır döyüş bölgəsi,
Keçən dövrlərin qanlı yaddaşı.
Gedir ölüm-dirim mübarizəsi,
Vuruşur hər qarış torpağı,daşı.

Günü- gündən dava alovlanırdı,
Cəhənnəm odunda yer-göy yanırdı;
Günəş qaralmışdı , Yeri qucmurdu;
Ağ- bəyaz buludlar Ayı qucmurdu;
Tanklar, təyyarələr uğuldayırdı,
Toplar hirsli- hirsli guruldayırdı;
Raket mərmiləri yeri qazırdı,
Kimlərə taleyi qara yazırdı?!
Nə vaxtdı didərgin düşmüşdü bahar,
Xarı bülbül daha ətir saçmırdı.
Budaqdan -budağa qonmurdu quşlar,
Gecələr bulaqlar pıçıldaşmırdı.
Vuruş meydanıydı şəhərlər , kəndlər,
Nəfəs daraldırdı barıt qoxusu.
Hücuma keçdikcə bizim igidlər
Gorbagor olurdu torpaq oğrusu.
Haydi irəliyə , Vətən əsgəri,
Qeyrət məqamıdır, hünər vaxtıdır!
Bir an aman vermə , əz düşmənləri,
Mərd oğul hər xalqın əzəl baxtıdır.
Yadları elə qov, elə hürküt ki,
Daha göz dikməsin özgə varına.
Təbiət oyansın duyğular kimi,
Torpağın qovuşsun öz baharına .
Min nemət bitirsin bu varlı torpaq,
Səadət yar olsun insana yenə.
Qonsun əvvəlkitək, qanad açaraq,
Arı-çiçəyinə, bülbül-gülünə.
Bir əsər qalmasın niskilimizdən ,
Qayıtsın yurduna Qarabağ eli.
Dünya ibrət alsın əməlimizdən,
Ucalsın qəlblərdə vicdan heykəli.

Ayıq ol, düşmənin məkrinə uyma,
Sayıq ol, günahsız qanlar az axsın.
Mətin ol , fürsəti əlindən qoyma,
O züy tutanları yandırıb-yaxsın.

Mənim qəhrəmanım bu amalla da
Döyüşə girirdi ürəkdən- candan
Hazırdı eyləsin canını fəda,
Vətənə can deyən əsirgəmi can!
Vətən dedikləri qeyrət qalası,
Onu ləyaqətlə qorumaq gərək.
Namərdlər gedəsi, mərdlər qalası,
Dağların başında məğrur qartaltək.
Əzəldən mərdlikdə,qəhrəmanlıqda
Yayılıb sorağı Car -Balakənin.
Şərəf də, şöhrət də, qəhrəmanlıq da
Nəsibi olacaq qeyrət çəkənin.

Ramazan tabora gəldiyi gündən
Nə səngimək bilir, nə dincəlirdi,
Azad etdikləri şəhərdən , kənddən
Onun xoş sorağı ,səsi gəlirdi.
Düşməni çaşdırır manevrləri,
Tale nur salırdı zəfər yoluna .
Ələ keçirəndə yüksəklikləri
Dağlar həyan idi dağlar oğluna.
Budur, Füzuli də od içindədir,
Uğrunda çarpışır şanlı ordumuz.
Ramazan taborla irəli gedir:
Yadelli basılar hücumla yalnız.
Fəqət hamar keçmir savaş yolları,
Onun gözlənilməz gedişləri var.
Uğurla yanaşı öz yaraları,
Ölüm -itim adlı bəd işləri var.
O, döyüşçülərin önündə ikən
Yaxınlıqda mərmi partladı birdən.
Belindən dörd qəlpə yarası aldı,
Ancaq qətiyyətlə döyüşdə qaldı.
Dərindir, ağırdır yaran dedilər,
Hospital -dedilər, loğman -dedilər.
Üzsə də canını qəlpə yarası,
Dəstədən qalarmı avar balası!
Güclə kənar edib qəlpələrini ,
Ilkin yardım etdi səhra həkimi.
Yenidən taborda tutdu yerini,
Hücum!- dedi, heç nə olmamış kimi.
Belə igidlərin qüdrəti ilə
Neçə kənd alındı, neçə də şəhər.
Bizim Ramazan da sücaətiylə
Mübarək adına yazdırdı zəfər.
Beyləqan, Xocavənd, Fizuli, Hadrut-
Onun zəfər yolu qoşa-qoşadı.
Ən ali niyyəti- o hüsnü məbud ,
O könül həsrəti gözəl Şuşadı.

**Şahlara yaraşan Qalamız Şuşa**

Gündə xoş müjdəylə gəlir noyabr,
Ordumuz hey zəfər marşını çalır.
Bu şöhrət, bu qüdrət qürur yaradır,
Fəqət ürəklərdə bir düyün qalır.
Qarabağın gözü-gözəl Şuşamız
Yadların əlində inləyir hələ;
Qarsaq-qarsaq olmuş köhnə yaramız,
Şuşa, deyə-deyə göynəyir hələ.
Şuşa ey bəxtindən aralı düşən
Azəri elinin könül sirdaşı,
Neçə ac hərisin gözünü deşən
Qızıl Qarabağın mirvari qaşı!

Söylə, kimin gözü qalmayıb səndə?
Qurbanı olubsan gözəlliyinin.
Ağa Məhəmməd şahı salmışdı bəndə
Göylərə baş çəkən qamətin sənin.
Əsrlər şahiddir, bizə töhfəsən
Pənah Əli xandan, İbrahim xandan.
Sənə layiq olmaz hər yoldan ötən,
Şahlara yaraşan Şah-Qalamızsan.
Xiffətini çəkir bu odlar yurdu,
Səni darda qoymaz qədirbilənlər.
Dünyaya səs salan müzəffər ordu
Yetər harayına bir gözəl səhər.

**Şuşaya yol Daşaltından keçir**

Fizuli səması təmizdir artıq,
Günəş qucaqlayır ulu dağları.
Əriyir, yox olur müdhiş qaranlıq,
Üfüqlər açılır Şuşaya sarı.
Budur, yetişdi o həlledici gün,
Verdi qərarını Qərargah qəti:
Şuşanı salamat azad etməkçün,
Başlansın " Daşaltı" əməliyyatı.
Daşaltı gedişi bir manevrdi,
Dağ aşıb arxadan Şuşaya qalxan
O qəfil Xüsusi Təyinatlılardan
Yayınsın düşmənin nəzər -diqqəti.
Keçilməz sədlərlə əhatələnən
Daşaltıya girmək müskül bir işdi.
Aşağıdan zərbə gözləyən düşmən
Məhz bu mövqeləri möhkəmlətmişdi.
Rəqibinin gücü bəlliydi ona,
Təşviş içindəydi, xof içindəydi.
Çəkilib təpələr, dağlar qoynuna
Canını qurtarmaq ümidindəydi.
Son mövqelərini itirməməkçün
Dəridən- qabıqdan çıxırdı düşmən.
Bədxahı anlamaq deyildi çətin:
Basılsalar Şuşa gedəcək əldən.

Ancaq anlamırdı bir həqiqəti,
Bu Vətən bizimdir, bu dağlar bizim.
Fikrimiz aydındır, sözümüz qəti:
Uzaq deyil günü qələbəmizin!

Döyüş bacarığı ən yüksək olan
Hərbçilər seçildi əməliyyata.
Vətənə arxadır oğul hər zaman,
Bundan böyük şərəf varmı dünyada?
Səfərə çıxarkən bilirdi əsgər,
Yolun hər addımı ölümdü, qandı;
Hər kəsi gözləyir keçilməz sədlər,
Fəqət bu ağır yol Şuşayacandı.
Ölümə getməyə hazırdı hər an,
Təki yağı -düşmən duyuq düşməsin;
Yalçın qayalarla Şuşaya qalxan
İgidlərə qarşı qoşun çəkməsin.
Budur, Daşaltıya yönələn tabor
Azad edə- edə yüksəklikləri,
Böyük cəsarətlə cumur irəli.
Ah, savaşın da öz acı hökmü var:
Dağlara düşəndə döyüş sədası,
Silahlar div kimi saçanda alov,
Aldı birdən, ağır güllə yarası
Tabor komandiri mayor Əliyev.
Yaralı Həmidi çəkib kənara
Göndərdi Ramazan arxa xəttinə.
Əmrlə komandir oldu tabora,
Bu andan başladı vəzifəsinə.
Komandir irəli yerimək üçün
Taboru təcili səfərbər etdi.
Bu yükü çiynində duyurdu bütün,
Çox qayğılı idi, həm də çox ciddi.
Sayıqlıq göstərmək gərəkdi hər an,
Yollar qorxuluydu, yollar ağırdı.
Cığırlar keçirdi dərədən, dağdan,
Hər təpə başından güllə yağırdı.

Daşaltı kəndinə can ata-ata
Tələsirdi tabor əməliyyata.
Beləcə keçdilər məşəqqət dolu
İyirmi kilometr piyada yolu.

**Daşaltı əməliyyatı**

Döyüşə- döyüşə bizim igidlər
Yetişdilər kəndin hüdudlarına.
Qurğular , pusqular , keçilməz sədlər
Yolunda tab edə bilmirdi ona.
Rəqibi bu yerdə gözlədiyindən
Böyük qüvvələr cəm etmişdi düşmən.
Fəqət heç ağlına gətirmirdi ki,
Onun dağlar oğlu Ramazan kimi
Məğrur və basılmaz qartalları var-
Doğma torpağında vuruşur onlar.
Ürəyi bir yanar közdü igidin ,
Savaşanda biri yüzdü igidin.
Əgər yol yorğunu olsa da belə,
Hərəkət əmrini verdi komandir.
Dedi: Başa vuraq bu işi , hələ
Dincələsi günlər irəlidədir.
Heç rahatlanmağa vaxt itirmədən,
Mərkli düşmənə aman vermədən
Bölməmiz münasib mövqelər seçdi,
Hər tərəfdən qəfil hücuma keçdi.
Komandirin yadı lərzəyə salan
Ağıllı taktiki gedişi vardı:
Ətraf təpələri geri almadan
Daşaltıya girmək müşkül olardı.
Odur ki, cumaraq göydə şahintək,
Düşməni yerində əzişdirərək,
Azad edə-edə yüksəklikləri
İgidlər gedirdi yalnız irəli.
Ürəklər alovlu,arzular coşqun,
Güllələr qıy vurur dərəyə , dağa.
Çəksin ayağını leş yeyən quzğun,
Bu yerdən əlini üzsün bir daha.
Bölməmiz tezliklə mənfur düşməni
Sarsıtdı ölümcül zərbələriylə.
Güclü müdafiə sistemlərini
Silah -sursatıyla keçirdi ələ.
Əsas keçidləri, bərəni -bəndi
Əldən verdiyini görəndə düşmən
Məcbur oldu daha boşaltsın kəndi,
Birtəhər qurtulsun bu ölümündən .
Kəndi tərk edərək dəstəbədəstə,
Itib yox oldular bucaqda -tində;
Çəkilib yuxarı dağ-qaya üstə,
Qüvvə topladılar Şuşa səmtində.

Axşam tərəfiydi , qaş qaralırdı,
Dağlar gün üzünə pərdə salırdı .
Yayıb ürəklərə gizli həyəcan,
Müdhiş bir sükuta dalmışdı hər yan
Komandir ayırıb qısa bir ara,
Fasilə vermişdi əsgərlərinə.
Qayğıyla baxırdı o, uzaqlara
Qonmuşdu xəfif bir hiss ürəyinə.
Sanki bir hadisə baş verəcəkdi,
Fəqət nə biləydi , nə görəcəkdi?!
Qaş altdan süzürdü o, heyran-heyran:
Hərəyə bir tale yazır yaradan !
Yüngül təbəssümlə yetirib nəzər,
Əhval- ruhiyyəni aldı o, xəbər.
Əsgərlər bir səslə cavab verdilər:
"Əladır, komandir,əla!"- dedilər.
Düzü, bütün günü gərgin gedişlər-
Çevik manevrlər,ağır döyüşlər,
Bir yandan tükənən azuqələri,
Yormaya bilməzdi igid əsgəri.
Fəqət əhval -halı öz qaydasında
Döyüş ruhu yenə yüksəkdə idi.
Müzəffər bir vuruş ehtirasında ,
Yağıları əzmək həvəsindəydi.

Elə bu niyyətlə, bu həvəslə də
Bizim döyüşçülər girdilər kəndə.
Qaranlıq yağırdı soyuq göylərdən,
Torpağa hakimdi müdhiş bir zülmət.
Beynimdə bir fikir dolaşır hərdən:
Qaranlıqdan doğur bəzən müsibət.

Ramazan dolanıb addımbaaddım
Himayə edirdi döyüşçüləri .
Deyirdi , kənara atılan addım
Verə bilər acı nəticələri.
Bilirəm , zülmdən keçir yolumuz,
Yer bizə nabələd, düşmən hiyləgər.
Bu haqq yürüşümüz bitər uğursuz
Hər an ayıq -sayıq olmasaq əgər.

Fəqət başabəla müharibənin
Hələ yazılmamış qanunları var:
Bəzən haqq uğrunda mübarizlərin
Arzusu ürəkdə qalması da var,
Bəzən gözlənilməz hadisələrdə
Bizi məyus edir bu çağdaş həyat!
İrəli gedərkən tabor hünərlə
Minalı sahəyə düşdülər, heyhat!
Dəhşətli partlayış qulaq batırdı,
Birdən komandanın pozuldu halı.
Qəlpələr beşinin ömrünü qırdı,
Torpağa sərildi on üç yaralı.
Bilsin, ağah olsun , o mənfur düşmən,
Ad çıxarmışsa da çirkin işlərdə,
Şəhidlər baxacaq öz zirvəsindən,
Görəcək qanları qalmayıb yerdə.
İgid döyüşçülər özünə gələcək,
Şəhid ruhlarına dua edərək,
Yaralı düşəni, şəhid gedəni
Yerbəyer etdilər bir xəlvət yerə.
Sakit keçirdilər bütün gecəni,
Məqsədi, məramı qaldı səhərə

**(davamı 6-cı səhifədə)**

(Əvvəli 5-ci səhifədə)

Dan söküb üfüqlər qızaran zaman,
Dünyaya güləndə səhərin gözü,
Yerdən öz köçünü çəkəndə duman
Ulu Daşaltının göründü üzü.
Ətraf sakit idi,hava da sərin ,
İnsan hənirtisi gəlmirdi kənddən.
Görəndə gücünü bizim əsgərin
Qorxub ayağını çəkmişdi düşmən.
Polad iradəli mətin qoçaqlar
Axşamki dəhşətin təsirindəydi.
Hələ qabaqdaydı ağır sınaqlar,
Özünü səfərbər etmək gərəkdi.
Gecəylə şəhid və yaralıları
Daşıyıb arxaya göndərmişdilər.
Ehtiyatla keçib qayalıqları
Kəndə yeriyirdi mərd döyüşçülər .

Təpəydi, qayaydı kəndin üzəri,
Yan -yörə qalatək dövrələnmişdi.
Onun əlindəydi üstün mövqelər,
Ovuc içi kimi -kənd yuxarıdan.
Yüksəkdən aşağı yağan güllələr
İrəli getməyə vermirdi imkan.
Güclü istehkamlar, postlar quraraq,
Düşmən qoruyurdu Şuşa yolunu.
Qayalı dağlara bel bağlayaraq,
Vermək fikri yoxdu heç vədə onu.

Ramazan vurnuxur qaya dibində-
Neçə yol , neçə də plan fikrində.
Qarşıdakı savaş taleyüklüydü-
Şuşaya çıxışçün həllediciydi.
Komandirə borcdu əsgəri qanun :
Almışdı Şuşaya hücum əmrini.
Nəyin bahasına olursa olsun,
Məhv etməli düşmən mövqelərini.

Qərara alındı kəndə girmədən
Qayalıqlar ilə hərəkət etsin,
Özünə gəlməyə aman vermədən
Düşmənə arxadan zərbə endirsin.
Köməyə yetişdi öz bölməsiylə
Hünərvər komandir Mənsimov Tehran.
Cumdular irəli qaya dibiylə
Tehran sağ cinahdan , Ramazan soldan.
Təpələr aşaraq məğrur qartallar,
Düşmən arxasında göründü birdən.
Yad yeri tutanın yeri oldu dar,
Aldı paylarını bizimkilərdən .
Qatıb qabağına qorxaq yadları,
Yabanı ot kimi biçib tökdülər.
Qaçan qaçdı atıb sür -sursatları,
Postların üstündən mala çəkdilər.
Ramazan meydanda göstərdi hünər,
Halal olsun ona Vətən çörəyi!
Əlində avtomat qızana qədər
Soyumadı onun yanar ürəyi.
Başa çatdı parlaq qələbə ilə
Tarixi Daşaltı əməliyyatı.
Qalibin adını gətirib dilə,
Vətən sağ ol-dedi, el alqışladı.

Budur Hərbi Hissə komandirindən
İgid Ramazana təşəkkür gəlir;
Əzgin olsalar da , vaxt itirmədən,
Şuşaya yerimək əmri verilir.

**Qartallar Şuşaya uçur.**

Bu qızğın döyüşdən salamat çıxan
İgidlər dincəlib nəfəs almadan,
Məhəl qoymayaraq yorğunluğuna
Üz tutdular qalxan Laçın yoluna .
Yol daşlı-qayalı, dumanlı dağlı,
Uşaqlar vuruşla yollar açırdı.
Arzular, əməllər Şuşaya bağlı,
Ürəklə hədəfə yaxınlaşırdı.

# QARTALLAR ŞUŞAYA UÇUR



Təcili tel gəldi Hərbi Hissədən-
Komandan Vilayət Quliyev idi.
Sən Laçın yoluna tez qalxa bilsən,
Onda qəhrəmansan, Hudulov dedi.
Budur axşam saat altı olanda
Igidlər göründü Laçın yolunda
On səkkiz nəfərdi cəmisi onlar-
O ələkeçməzlər , o mətin canlar.
Ramazan, asfalta ayaq dəyincə,
Cənab Komandana etdi məruzə.
Şuşanın üççə yüz metrliyində
Əsgərimiz durur- bu bir möcüzə!
Gözün aydın , Şuşa , gözəl qoynuna
Qələbə müjdəli Qartallar enir;
Bu gün son qoyulur "Arsax" oynuna,
Mübarək hüsnünə nurlar ələnir.

Axşamın bu ala-toranlıq vaxtı
Dəstəmiz düşmənlə gəldi üz-üzə.
Qəzəbli gözlərdən şimşəklər çaxdı,
Səma çalxalandı, döndü dənizə.
Bizim igidlərdən başlayan savaş
Yadların canına salmışdı təlaş.
Güllələr saqqaşaq şaqqıldayırdı,
Torpağın üzünə ölüm yayırdı.
Həmlələr , hücumlar vermirdi ara,
Hər bir əsgərimiz bir aslan idi.
Onlar qızışdıqca qızırdı ara,
Dəstəyə ruh verən Ramazan idi.

Fəqət gərginləşir halı dəstənin:
İki gün ac-susuz döyüşürdülər;
Silah tükənəndə, qaçan düşmənin
Sursatını ələ keçirirdilər.
Komandir dəstəni hifz eləyirdi,
Ürək -dirək verib hər an deyirdi:
" Bu gün ona görə buradayıq ki,
Yadların başını qatmalıyıq ki,
Qayaları aşıb Şuşaya qalxan
O cəsur Xüsusi Təyinatlılardan
Düşmən qüvvələri tutmasın xəbər,
Bununla bağlıdır bu şanlı zəfər.

Nə yaxşı, bir dəstə gəldi köməyə,
On səkkiz olanlar qırx səkkiz oldu.
Sevinc sığmayırdı yerə və göyə
Taborun boşalan sırası doldu.
Komandir taboru edib səfərbər
Daha da güc verdi əməliyyata.
Geri çəkilirdi qarşı qüvvələr ,
Say etibarıyla üstün olsa da.
Budur, unudulmaz bir aydın səhər
Dağ Qartallarından gəldi şad xəbər:
Yenilməz Xüsusi Təyinatlılar
Aşaraq quşqonmaz yalçın dağları,
Şuşa qalasına qədəm basdılar.
Başladı Şuşanın azad çağları.
Bu gözəl müjdədən ürəklənərək ,
Tabor hücum çəkdi şəhərə doğru.
İrəli cumdular yaralı şirtək
Niyyətləri təmiz, yolları doğru.
O yandan Xüsusi Təyinatlılar ,
Bu yandan qarşısı alınmaz tabor,
Şuşa əhatəyə alınmış idi,
İşğalçı dar günə salınmış idi.
Xoş müjdəli günün axşam tərəfi
Səmada göründü ağ durna səfi.
Düşmən mövqeyini dəf edib bir-bir,
Şəhər girişinə çatdı komandir.
Qala Qapıları açıldı tay-tay,
Qalibin baxtına düşdü bu olay.

Ah ,necə də xoşbəxt , həyacanlı an,
Artıq şəhərdədir bizim qəhrəman!
Tarixi bir döyüş yaşanır burda,
Döyüşə son akkord vurur tabor da
Budur, axşamçağı iki xilaskar-
Taborla Xüsusi Təyinatlılar
Şuşa meydanında qarşılaşırlar,
Zəfər təbrikiylə qucaqlaşırlar.
Nə qədər gözəldir bu axşamçağı!-
Göydə ulduzlar da azad sayrışır;
Məğrur dalğalanır Vətən Bayrağı,
Bu şərəf, bu şövkət bizə yaraşır.

**Söz ardı**

Ay ata , ay ana, gözünüz aydın,
Şanlı qələbəylə Ramazan gəlir.
Gedəndə ürəkli bir oğul idi,
Gələndə ordenli qəhrəman gəlir.

Müqəddəs torpaqda qalıb sorağı,
Cıdır düzünə də dəyib ayağı,
Qururla ,əlində zəfər bayrağı,
Əsgər salamıyla Şuşadan gəlir.

Ağrılı qəlbində daha qalmadı
Qarabağ harayı, Şuşa fəryadı.
Zəfər tarixinə yazdırıb adı,
Elin görüşünə kapitan gəlir.

Məğrur bahadırdır , dağlar oğludur,
Əsil- nəcabəti pakdır, uludur,
Yolu qeyrət yolu , hünər yoludur,
Bu qeyrət atadan, anadan gəlir.

Mərhaba, ey qartal olan igidlər,
Şuşa qalasına qonaq igidlər,
Vətən deyə-deyə yanan igidlər,
Bu gün sizdən bizə şərəf- şan gəlir.



*Xutra RAMAZAN*